# Azərbaycan nümayəndə heyəti BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində Fransa tərəfinə cavab verib

**Oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası zamanı Azərbaycan Respublikasının nümayəndə heyəti Fransanın bəyanatına cavab olaraq bəyanatla çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Ermənistan mətbuatında yayılan və 34 ölkənin birgə bəyanatı kimi təqdim edilən bəyanat, əslində, yalnız Fransa və Ermənistan adından verilib.

Azərbaycan nümayəndə heyəti öz bəyanatında Fransanın səsləndirdiyi əsassız ittihamları rədd edərək, onun ölkəmizdə baş verən siyasi proseslərə açıq-aşkar müdaxilə cəhdini pisləyib. Nümayəndə heyəti Fransanın beynəlxalq hüququn prinsiplərinə açıq-aşkar məhəl qoymaması, Azərbaycan ərazilərinin işğalı zamanı ölkənin suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsinə selektiv yanaşması, son 30 ilə yaxın müddət ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğaldan azad edilməsində, 1 milyona yaxın azərbaycanlı məcburi köçkün və qaçqının, o cümlədən Ermənistandan zorakılıqla qovulmuş 300 min azərbaycanlının öz doğma yurdlarına qayıtmasında qərəzsiz vasitəçilik rolunun uğursuzluğa düçar olması səbəbindən bu proseslərdə heç bir rolunun olmadığını vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan nümayəndə heyəti digər nümayəndə heyətləri ilə yanaşı, Fransaya da iki dəfə dialoq təklif edib, ancaq rəsmi Paris bundan imtina edib və İnsan Hüquqları Şurasını alətə çevirmək siyasətini davam etdirir.

Bəyanatda həmçinin Azərbaycanın regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün çalışdığı, Fransanın Azərbaycan tərəfindən beynəlxalq tərəfdaş, vasitəçi və ya BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi etibarının sıfıra bərabər olduğu diqqətə çatdırılıb.

Azərbaycan nümayəndə heyəti Fransanın təklif etdiyi tədbirləri və təşəbbüsləri, sadəcə olaraq, rəsmi Parisin təklifi olduğu üçün rədd edib. Vurğulanıb ki, Azərbaycan neokolonial imperiya ambisiyaları olmayan və ya dünyanın bu hissəsində itirilmiş statusunu dirçəltməyə cəhdlər göstərməyən etibarlı tərəfdaşlarla münasibətlərə və əməkdaşlığa açıqdır.

Azərbaycan nümayəndə heyəti daha sonra xatırladıb ki, Azərbaycanın Qarabağ bölgəsinə iki dəfə səfər etmiş BMT-nin bir neçə agentlikdən ibarət missiyası Xankəndi şəhərində mülki infrastruktura, o cümlədən xəstəxanalara, məktəblərə və yaşayış binalarına, eləcə də mədəni və dini abidələrə heç bir ziyan vurulmadığını bildirib. Missiya Azərbaycan Respublikası hökumətinin Xankəndidə səhiyyə xidmətlərinin və bəzi kommunal xidmətlərin bərpasına hazırlaşdığını müşahidə edib. Eyni zamanda son atəşkəsdən sonra nə yerli əhalidən, nə də həmsöhbətlərdən dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı heç bir hala rast gəlinməyib. Missiya heç bir kənd təsərrüfatı infrastrukturunun və heyvanların məhv olunmasını müşahidə etməyib. Azərbaycan nümayəndə heyəti xatırladıb ki, bu müşahidələr BMT QAK-ın Ermənistandakı ofisinin, eləcə də BQXK-nın nəticələri ilə də öz təsdiqini tapıb. Bundan başqa, bir sıra xarici jurnalistlər də Qarabağ bölgəsində baş verənləri işıqlandırıblar.

Azərbaycanın öz suveren ərazisində suveren ölkə kimi bir çox beynəlxalq aktorlarla, o cümlədən BMT sisteminə daxil olan qurumlar ilə səmərəli əməkdaşlıq etdiyi, bir çox sahələri əhatə edən bu əməkdaşlığın Qarabağ bölgəsinin yenidən Azərbaycana reinteqrasiyasına yönəldiyi və bunun Azərbaycan resurslarına əsaslandığı qeyd olunub.

Azərbaycan nümayəndə heyəti Ermənistandan müdrikliyə və sağlam düşüncənin səsinə qulaq asmağını, regionda sülhün əldə olunması üçün yaranmış imkandan istifadə etməyini gözlədiyini bildirib.

Azərbaycan.- 2023.- 13 oktyabr.- S.7.